# Ona Azərbaycanla bağlı olan istənilən məsələ əzizdir

***❒ Mən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva barədə çox oxumuşam. Dəfələrlə tədbirlərdə birgə iştirakımız zamanı da onun xalqımıza və dövlətimizə nə qədər səmimiyyətlə xidmət etmək istəyinin şahidi olmuşam. Ancaq bu gənc siyasətçimizə xas olan iki keyfiyyəti xüsusi fərqləndirmək istərdim.***

Birinci keyfiyyətini o, təxminən, üç il qabaq mətbuata verdiyi müsahibədə ortaya qoymuşdu. Müsahibə götürən jurnalist də onun səmimiyyətini sərlövhəyə çıxartmışdı: "Heydər Əliyevin nəvəsinin haradasa səhv etməyə haqqı yoxdur!".

Fikrimcə, olduqca dəyərli yanaşma idi. Çünki ulu öndər Heydər Əliyev xalqımızın və bəşəriyyətin elə bir zirvədə dayanan oğludur ki, onun adını, soyadını yaşadan kiminsə, hansısa məsələdə səhv etməsini bir andaca bütün dünya görə bilər. Ona görə də biz ziyalılar Leyla xanımın həmin etirafını çox yüksək qiymətləndirmişdik.

İkinci məqam isə Leyla Əliyevaya daha əziz olan Azərbaycanla bağlı idi. Onun Azərbaycan həqiqətlərini beynəlxalq aləmdə necə təbliğ etdiyini, cəmiyyətimizin istənilən sahəsi ilə bağlı göstərdiyi təşəbbüskarlığını qeyd etməyə ehtiyac yoxdur. Bunu hamı bilir. Amma ötən ilin yayında biz elə bir məsələnin şahidi olduq ki, onu bu gün də qeyd etməliyik, həmişə də yadda saxlamalıyıq.

Söhbət ondan gedir ki, ötən il Azərbaycan Milli Elmlər Akademiyasının saytında oxumuşduq ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva Azərbaycan ərazisinə düşmüş meteoritin bir parçasının Vyana Təbiət Tarixi Muzeyinə hədiyyə olunması barədə məsələ qaldırmış və buna nail olmuşdur. Burada məni məmnun edən nə idi? Dünyada ən zəngin saxlanc yeri olan həmin muzeyə planetin hər yerindən alimlər – bəli, məhz turistlər yox, alimlər gəlirlər və Leyla xanım onlara təqdim edilən eksponatların arasında "Azərbaycanın təqdim etdiyi meteorit parçası"nın da olmasını istəmişdir. Fikrimcə, bu, vətənpərvərliyin ali nümunəsi idi.

Akademiyanın xəbərində bildirilirdi ki, Avstriyanın Vyana Təbiət Tarixi Muzeyində (VTTM) Azərbaycan tərəfindən bu muzeyə hədiyyə edilən meteorit parçasının təqdimat mərasimi keçirilib. Həmin muzey dünyanın ən böyük meteorit kolleksiyasına sahibdir. Burada müxtəlif ərazilərə düşmüş 7 mindən artıq meteorit parçası qorunur. Qeyd edilirdi ki, əksəriyyəti hədiyyə edilən meteorit parçaları müfəssəl şəkildə sənədləşdirilir və onlardan elmi-tədqiqat məqsədləri üçün də istifadə olunur. Azərbaycan tərəfindən təqdim edilən meteoritin, 1959-cu ilin noyabrın 24-də Azərbaycanın Yardımlı rayonu ərazisinə düşdüyü və 1891-ci ildə Şuşa qəzası ərazisində tapılmış Hindarx meteoritindən sonra VTTM-ə hədiyyə olunan ikinci parça olduğu bildirilirdi.

Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru Elçin Babayev meteoritin bir parçasının muzeyə hədiyyə edilməsi təşəbbüsünün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən irəli sürüldüyünü qeyd etmişdi.

Elə bilirəm ki, Leyla xanımın göstərdiyi bu təşəbbüs və diqqət "Fəxr edirəm ki, mən azərbaycanlıyam" – deyən ulu öndər Heydər Əliyevin adına layiq fəaliyyət göstərən nəvənin yurdsevərliyi və təəssübkeşliyidir.

***Ağaverdi PAŞAYEV,***
***Xalq artisti,***
***professor***

Xalq qəzeti.- 2019.-2 iyul.- S.5.